“Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 9.21 bəndini rəhbər tutaraq ali təhsil sistemində yüksək ixtisaslı mütəxəssis hazırlığı keyfiyyətinin yüksəldilməsini təmin etmək məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Tələbələrin XXII Respublika elmi konfransı (bundan sonra – konfrans) və konfrans çərçivəsində müsabiqə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə 2011-ci ilin noyabr ayında keçirilsin.

2. Tələbələrin XXII Respublika elmi konfransının və müsabiqənin keçirilmə Qaydaları (əlavə 1) və konfransın Təşkilat komitəsi (əlavə 2) təsdiq edilsin.

3. Konfrans və müsabiqə Bakı Slavyan Universitetinin bazasında keçirilsin.

4. Bakı Slavyan Universitetinin rektoruna (K.Abdullayev) konfrans və müsabiqənin keçirilməsi üçün müvafiq şəraitin yaradılması tapşırılsın.

5. Ali təhsil müəssisələrinin rektorlarına konfransda iştirak etmək istəyən tələbələrin siyahısının, onların məruzə tezislərinin və konfrans iştirakçıları tərəfindən doldurulmuş “anket”in 2011-ci ilin 1 oktyabr tarixinə qədər Təhsil Nazirliyinə təqdim edilməsi tapşırılsın.

6. Təhsil Nazirliyinin Elm şöbəsinə (G.Hüseynova) tapşırılsın:

6.1. Bölmə sədrləri və ekspertlər haqqında təkliflər hazırlayıb 2011-ci ilin 15 oktyabr tarixinə qədər nazirliyin rəhbərliyinə təqdim etsin.

6.2. İqtisadiyyat şöbəsi (Ş.Əliyev) ilə birlikdə müsabiqənin xərclər smetasını hazırlayıb 2011-ci ilin 25 may tarixinədək nazirliyin rəhbərliyinə təqdim etsin.

7. Əmrin çoxaldılıb yerlərə çatdırılması Ümumi şöbəyə tapşırılsın.

8. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmrin «Azərbaycan müəllimi» qəzetində və «Təhsil xəbərləri» məlumat-informasiya məcmuəsində dərc olunmasını və nazirliyin veb-saytında yerləşdirilməsini təmin etsin.

9. Əmrin icrasına nəzarət nazir müavini İ.Hüseynovaya həvalə edilsin.

Əsas: Elm şöbəsinin iş planı.

***Misir MƏRDANOV,***
***Azərbaycan Respublikasının***

***təhsil naziri***

***4 may 2011-ci il***

***№ 745***

**Əlavə:**

1. Tələbələrin XXII Respublika elmi konfransı və konfrans çərçivəsində müsabiqənin keçirilmə Qaydaları

2. Tələbələrin XXII Respublika elmi konfransı və konfrans çərçivəsində müsabiqənin Təşkilat komitəsi